# Heydər Əliyev ideyaları Azərbaycanın dünəni, bu günü və sabahıdır

## YAP Xətai rayon təşkilatının yaradılmasının 23 illiyi qeyd olundu

**Dünən Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının yaradılmasının 23 illiyinə həsr olunan tədbir keçirildi.**

YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov bildirdi ki, hər bir mühüm hadisə müqayisəli təhlillər əsasında uğurlarımıza işıq salır: "Yeni Azərbaycan Partiyasının yaradılması zamanın tələbi idi. Əlbəttə, keçdiyimiz 23 illik yol şərəfli tarixdir. Bu tarixin səhifələrini vərəqlədikcə bir gerçəkliyin şahidi oluruq ki, qarşıya nə qədər çətinliklər çıxsa da, düşünülmüş siyasətin nəticəsində onların hər biri öz müsbət həllini tapıb. Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə inamla irəliləyir. Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Bu uğurlarda Yeni Azərbaycan Partiyasının xidmətləri inkaredilməzdir. Uğurlarımızın fonunda bu fikri böyük inamla qeyd edirik ki, qarşıdakı illər Azərbaycan üçün daha böyük nailiyyətlərlə yadda qalacaq. Prezident İlham Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası qarşıdakı illər üçün nəzərdə tutulan hədəflərə yüksək səviyyədə nail olmaq iqtidarındadır. Bunları həyata keçirmək üçün mühüm əsaslar var."







O da qeyd olundu ki, Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın ən qüdrətli siyasi təşkilatıdır. Partiyanın gücünün, qüdrətinin əsasında dayanan başlıca amil ulu öndər Heydər Əliyevin adı ilə bağlı olmasıdır. YAP-ın gücünün, qüdrətinin digər mənbəyi də partiyanın Sədri cənab İlham Əliyevlə əlaqədardır. 2003-cü ildən bu günə Azərbaycanın çox sürətlə, dinamik inkişafı, modernləşməsi, müasir bir cəmiyyətə çevrilməsi, həyatımızın bütün sahələrində dəyişikliklərin əsasının qoyulması insanlarda cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə böyük inam formalaşdırıb. Ötən ilin noyabrında keçirilən növbəti parlament seçkiləri ölkə Prezidenti İlham Əliyevə, onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasına xalqın inamını bir daha ortaya qoydu. Böyük nüfuz qazanan Yeni Azərbaycan Partiyası bu gün sıralarını bu inam əsasında kəmiyyət və keyfiyyət baxımından daha da zənginləşdirir. Bu gün partiyanın sıralarında 650 mindən artıq üzvün birləşməsi də YAP-ın yaradıcısı ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətin, onun siyasi kursunun davamçısı Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə inamın göstəricisidir. Bu qüvvə Azərbaycanın daha da möhkəmlənməsi, qüdrətlənməsi istiqamətində səfərbər olunub, fəaliyyət göstərir və bundan sonra da hər fədakarlığı göstərməyə hazırdır.

Bu gün sıralarında 17 minə yaxın üzvü birləşdirən YAP Xətai rayon təşkilatının 1993-cü il fevralın 13-də təsis konfransının "Bakı" kinoteatrında hansı çətinliklərlə keçirildiyini diqqətə çatdıran H.Mirələmov o anların bugünkü uğurlarımızın fonunda böyük fəxr hissi ilə yada salındığını bildirdi. Məhz həmin dövrdə insanların bu prosesdə fəal iştirakı onların ulu öndər Heydər Əliyevə böyük məhəbbətini, sədaqətini ortaya qoymuşdur.

Tədbirdə çıxış edən "Bakı" kinoteatrının direktoru İslam Babayev 23 il bundan əvvəl yaşanan o çətin, amma dünənimiz, bu günümüz və gələcəyimiz üçün önəmli olan mühüm hadisədən geniş bəhs etdi. Vurğuladı ki, böyük çətinliklər sayəsində yaradılan YAP Xətai rayon təşkilatı bu gün ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, sıralarını günbəgün genişləndirir.

YAP Xətai rayon təşkilatı Qadınlar Şurasının sədri Aygün Əhmədli dövlətin, Yeni Azərbaycan Partiyasının qadınlara diqqət və qayğısından bəhs etdi. Ulu öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının sıralarında qadınların çoxluq təşkil etməsinə verdiyi önəmi bu diqqət və qayğının bariz nümunəsi kimi diqqətə çatdırdı. Bu gün həmin siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Partiyanın bütün rayon təşkilatlarının tərkibində fəaliyyət göstərən Qadınlar Şurası öz fəaliyyət istiqamətlərini genişləndirərək, qarşıya qoyulan məqsədlərə nail olmağa öz töhfələrini verməyə səy göstərirlər.

YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxışında bu fikri xüsusi qeyd etdi ki, ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası keçdiyi şərəfli yola, tarixə bundan sonra daha böyük qələbələr yazacaq. Bu uğurları şərtləndirən əsas amillərdən biri məhz YAP-ın yaradıcısının ulu öndər Heydər Əliyevin olması və bu gün partiyanın Prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləməsidir.



Partiyanın yarandığı dövrdə ictimai-siyasi durumun ağır vəziyyətdə olmasından, insanların sabaha olan ümidlərinin itməsindən bəhs edən V.Rəhimzadə qeyd etdi ki, 1992-ci il noyabrın 21-də təsis konfransını keçirən Yeni Azərbaycan Partiyası yarandığı gündən ümumxalq partiyasına çevrilərək xalqda sabaha inam yaratdı, qarşıya qoyduğu vəzifələri uğurla həyata keçirməklə ölkənin inkişafına, tərəqqisinə yol açdı.

V.Rəhimzadə 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın tarixində yeni mərhələnin açıldığını xüsusi qeyd edərək, ötən dövr ərzində uğurlu siyasət nəticəsində əldə olunan nailiyyətləri diqqətə çatdırdı. Bildirdi ki, bu gün Azərbaycanın beynəlxalq münasibətlər sistemində aparıcı rol oynaması, dinamik iqtisadi inkişafa malik ölkə kimi tanınması, demokratiya təcrübəsinin digər ölkələrə nümunə göstərilməsi düzgün təmələ əsaslanan siyasətin nəticəsidir. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdışı ilə Yeni Azərbaycan Partiyasının həyatında da yeni mərhələnin əsasını qoydu. YAP iqtidar partiyası kimi mövqeyini möhkəmləndirdi, qələbələri ilə cəmiyyətdəki nüfuzunu bir daha nümayiş etdirdi.

Vüqar Rəhimzadə vurğuladı ki, bu gün həmin siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın ən yüksək zirvələri fəth etməsini şərtləndirir. Gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər amillər olduğunu ölkə Prezidenti İlham Əliyev belə əsaslandırır ki, "xalq", "millət" anlayışları ön planda olanda istənilən problem öz həllini tapa bilər. Bu mənada, dövlətimizin həyata keçirdiyi siyasətin önündə insan amili dayanır.

YAP Xətai rayon təşkilatının təsis konfransının iştirakçısı kimi V.Rəhimzadə ötən 23 ildə əldə olunan uğurların miqyasının geniş olduğunu diqqətə çatdırdı. Bildirdi ki, YAP Xətai rayon təşkilatı partiyanın digər təşkilatlarından fəallığı ilə seçilir, ölkənin ictimai-siyasi həyatında əldə olunan uğurlara öz töhfələrini verir. Bu gün təşkilatın hər bir üzvü belə bir partiyada təmsil olunmaqdan qürur duyur.

YAP Xətai rayon təşkilatının sədr müavini, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan bəhs etdi. Bildirdi ki, Azərbaycanın bugünkü uğurlarına öz töhfələrini verən Yeni Azərbaycan Partiyasının yeni hədəflərə doğru inamla irəliləməsi onun dövlətə, xalqa bağlı olduğunu bir daha ortaya qoyur. Nəticədən öncə səbəbə diqqət yetirilməsi uğurlara yol açan başlıca şərtdir. Bütün sahələr üzrə konkret proqramlar qəbul olunub və uğurla icra edilir. Regional inkişaf proqramlarının uğurlu icrası ölkənin hərtərəfli inkişafını sürətləndirir. Paytaxt və bölgələrdə həyata keçirilən quruculuq, abadlıq işləri də ölkəmizin artan iqtisadi qüdrətinin, maliyyə imkanlarının təsdiqidir. Bütün bunların hamısı insanların rifahının artması ilə yanaşı, həyatının keyfiyyətinin dəyişməsinə səbəb olur. Eyni zamanda, atılan addımlar bütövlükdə Azərbaycanın müasirləşməsinin, yeniləşməsinin, insanların rahat yaşamasının təmin edilməsinə yönəlib. Yeni Azərbaycan Partiyasının başlıca amalı ölkəmizin qüdrətini artırmaq, Azərbaycanın iqtisadiyyatını daha da inkişaf etdirmək, bunların da fonunda əhalinin sosial müdafiəsini gücləndirməkdir.

Tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin Azərbaycana qazandırdığı uğurlardan bəhs edərək, yeni hədəflərin gələcəyə daha böyük inamla baxmağa əsas verdiyini bildirdilər. Xalqımız ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin ətrafında sıx birləşərək, irəli sürülən bütün təşəbbüsləri dəstəkləyir, inkişafın Azərbaycan modelinin mövcudluğunu böyük qürur hissi ilə qeyd edirlər.

Sonda YAP Xətai rayon təşkilatının işində fəal iştiraklarına görə bir qrup üzvə Fəxri fərman, partiya sıralarına yeni daxil olanlara isə üzvlük vəsiqəsi təqdim edildi.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***